# Almaniya Azərbaycanı mühüm iqtisadi tərəfdaş kimi qəbul edir

## İlham Əliyevin Berlində aparıcı şirkətlərin rəhbərləri ilə görüşü iqtisadi sahədə əlaqələrin inkişafına töhfə verəcək

Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfərinin əsas məqamlarından biri dövlətimizin başçısının bu ölkənin aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü oldu. Belə ki, bu görüş ilk növbədə Azərbaycanın iqtisadi inkişaf göstəricilərinin və ölkəmizdəki əlverişli sahibkarlıq mühitinin Almaniyanın biznes dairələri üçün hərtərəfli təqdimatı idi.

Eyni zamanda bu görüş göstərdi ki, iri və dünyada tanınan alman şirkətləri Azərbaycanla əlaqələrin daha da inkişafında və yeni əməkdaşlıq münasibətlərinin yaradılmasında maraqlıdırlar.

### İslahatçı ölkə

Azərbaycanın müstəqillik dövrünün əsas hadisələrindən biri iqtisadi inkişafdır. Təsadüfi deyil ki, bu gün respublikamız iqtisadiyyatın və biznes fəaliyyətinin bir çox indikatorları üzrə yüksək göstəricilərə malikdir. Eyni zamanda Azərbaycan hazırda qlobal miqyasda islahatçı ölkə kimi tanınır və bu, beynəlxalq hesabatlarda da öz əksini tapır.

Bir məsələni də qeyd etməliyik ki, son onillikdə baş verən və qlobal miqyas daşıyan maliyyə-iqtisadi böhranları Azərbaycan iqtisadiyyatına müəyyən dərəcədə təsirini göstərsə də, respublikamız bu sınaqlardan uğurla çıxıb. Bunun da əsas səbəbi əvvəlki mərhələdə yaradılan baza və qlobal riskləri nəzərə alaraq vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlərdir. Respublikamızdakı iqtisadi islahatlar isə davamlıdır. O cümlədən bütün dünyada iqtisadi sferanı bürüyən təbəddülatlar baş verəndə də respublikamızda qlobal çağırışlara uyğun islahatlar həyata keçirilib. Bu islahatlar qeyri-neft sektorunun inkişafı məqsədilə məhdud sahə ilə kifayətlənməyərək kompleks tədbirlərin görülməsini əhatə edib.

Bütün bunların nəticəsidir ki, Azərbaycan iqtisadiyyatı mükəmməl nümunəyə çevrilən yüksəliş nümayiş etdirib. Görünən odur ki, həyata keçirilən islahatlar inkiafa xidmət etməklə müsbət nəticələr verdi. Prezident İlham Əliyev martın 13-də Berlində Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşdə bu barədə danışaraq dedi: "Son 20 ildə iqtisadiyyatımız üç dəfədən çox artıb. Düşünürəm ki, bu, dünya rekordu hesab oluna bilər. Eyni zamanda birbaşa xarici borcun azalması strategiyasına əsaslanaraq biz xarici borcumuzu azaltmışıq və 2023-cü il yanvarın 1-nə olan məlumata görə, bu, ÜDM-in 10 faizindən aşağı olub. Faktiki olaraq bu, mənim bir neçə il bundan əvvəl hökumətin qarşısında qoyduğum hədəf idi".

### Azərbaycanın hədəfləri özəl sfera üçün geniş fəaliyyət meydanı açır

Prezident İlham Əliyevlə görüşdə Almaniyanın müxtəlif sferalarında çalışan şirkətlərin nümayəndələri iştirak edirdilər. Enerji, konsaltinq, tikinti materialları istehsalı, minatəmizləmə, rəqəmsal texnologiya, infrastruktur, landşaft və memarlıq, logistika, kənd təsərrüfatı, avadanlıq istehsalı, bank və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin hər birini ölkəmizlə bağlı birləşdirən əsas ortaq cəhət Azərbaycana və onun rəhbərinə göstərdikləri yüksək ehtiram idi.

Əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycan əlverişli və səmərəli biznes mühitinin təmin olunduğu ölkələr sırasındadır və bu, beynəlxalq reytinq agentliklərinin hesabatlarında yer alır. Almaniya kimi iqtisadi baxımdan yüksək inkişaf etmiş dövlətlərin şirkətləri də xarici ölkələrlə əməkdaşlıqda, sərmayə qoyuluşunda bu faktorlara böyük önəm verirlər. İndiyə qədər Azərbaycanda iqtisadiyyatın bütün sahələrinə yatırılan genişmiqyaslı xarici sərmayə də ölkəmizdəki əlverişli biznes mühitinin göstəricisidir.

Vətən müharibəsindən sonra Azərbaycan həm də öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Milli prioritetlərdə və dövlət proqramlarında qarşıdakı hədəflər aydın təsvir olunub. Bu gün respublikamızın qarşısında dayanan əsas vəzifələr Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, bu ərazilərin "yaşıl enerji" zonası kimi inkişaf etdirilməsi, ənənəvi enerji növləri ilə yanaşı, Azərbaycanın "yaşıl enerji" ixracatçısına çevrilməsi, qeyri-neft sektorunun inkişafı kimi məsələlərdir. Təbii ki, bütün bunlar özəl sfera, biznes dairələri üçün də geniş fəaliyyət meydanı açır.

Bu baxımdan Prezident İlham Əliyevin Berlində aparıcı şirkətlərin rəhbərləri ilə görüşü alman iş adamlarının Azərbaycanla əməkdaşlığının daha da genişlənməsinə yeni töhfələr verəcək. Ən əsası odur ki, respublikamızdakı biznes və əməkdaşlıq imkanları ilə bağlı məlumatların ölkə rəhbərindən alınması yeni əməkdaşlıq əlaqələrinin yaranmasında mühüm rol oynayacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 19 mart.- S.6.